# Yaşıl enerji məkanı üzrə Alt İşçi Qrupunun iclası keçirilib

***"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun olaraq "2021-2025-ci illərə dair sosial-iqtisadi inkişaf Strategiyası"nın hazırlanması ilə bağlı aidiyyəti dövlət qurumlarının fəaliyyətinin əlaqələndirilməsi məqsədilə yaradılmış "Yaşıl enerji məkanı" üzrə Alt İşçi Qrupunun videokonfrans formatında növbəti iclası keçirilib.***






Energetika Nazirliyindən verilən məlumatda bildirilir ki, Alt İşçi Qrupun rəhbəri, energetika naziri Pərviz Şahbazovun sədrliyi ilə keçirilən iclasda strategiya layihəsinin Alt İşçi Qrupu tərəfindən hazırlanmış "Yaşıl enerji məkanı"na dair hissəsiin və Tədbirlər Planının İqtisadiyyat Nazirliyində yaradılmış Katibliyə təqdim olunduğu və Katiblik tərəfindən sənədin ümumi layihəsinə daxil edildiyi diqqətə çatdırılıb.

İclasda "2021-2025-ci illərə dair sosial-iqtisadi inkişaf Strategiyası"nın layihəsi təqdimat şəklində nümayiş etdirilib, sənədin müvafiq bəndləri nəzərdən keçirilib, qrup üzvlərinin fikirləri dinlənilib. Ümumilikdə, son təkliflər nəzərə alınmaqla Alt İşçi Qrupu tərəfindən strategiya layihəsinin qəbulu məqsədəmüvafiq hesab olunub və müvafiq rəyin Katibliyə təqdim edilməsinə dair qərar qəbul edilib.

***Samirə ƏLİYEVA,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 7 oktyabr.- S.9.